Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 37 (1165) 24 fevral - 25 fevral 2016-cı il

# VƏTƏNİN ZAQATALA ADLI İNCİSİ

(əvvəli ötən saylarımızda)

**Rayon rəhbərliyinin fermerlərə diqqət və qayğısı olaraq son 25 ildə ilk dəfə 23 dekabr 2015-ci il tarixdə Zaqatala RİH başçısının Acınohur və Səbətli qışlaqlarında rayonun 31 qoyunçuluq təsərrüfatının nümayəndələri ilə səyyar görüşü keçirilmişdir. Görüşdə RİH başçısı təsərrüfatların qışlamasının gedişi vəziyyəti ilə bilavasitə yerində tanış olmuşdur. Fermerlərin qaldırdıqları bəzi məsələlər yerində həll edilmiş, bəzilərinin isə həlli nəzarətə götürülmüşdür. Bundan başqa təsərrüfatlarda çalışan çobanların rayon Mərkəzi Xəstəxanasının həkim briqadası tərəfindən tibbi müayinəsi aparılaraq onlara ilk yardım üçün dərman vasitələrinin paylanılması təmin edilmiş, rayon Baytarlıq idarəsinin əməkdaşları tərəfindən sürülərin müayinəsi aparılaraq lazımi tədbirlər görülmüşdür. Tədbir günü heyvandarlara 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni 2016-cı il bayramları münasibəti ilə bayram sovqatı verilmişdir.**

### *Prezident: hər il "Kənd təsərrüfatı ili" olmalıdır...*

Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kənd təsərrüfatının inkişafı ilə bağlı bir çox məsələlərə diqqəti cəlb edərək demişdir: "Bizim üçün kənd təsərrüfatı o sahədir ki, qeyri-neft ixracımızı, ərzaq təhlükəsizliyini, insanları işlə təmin edəcək. Ona görə, keçən il "Kənd təsərrüfatı ili" olmuşdur. Ancaq hesab edin ki, bu il də "Kənd təsərrüfatı ili"dir. Hər il "Kənd təsərrüfatı ili" olmalıdır". Odur ki, rayonda fəaliyyət göstərən əlaqədar təşkilatlar, o cümlədən fermer təsərrüfatları bütün imkanları səfərbər edərək cənab Prezidentin bu sahədə olan tapşırıqlarını yerinə yetirməlidirlər.

**"...Ölkəmiz inkişaf edir. Keçən ili də uğurla başa vurmuşuq. Bu ili də uğurla başa vuracağıq. Baxmayaraq ki, dünyada indi müxtəlif proseslər gedir. Bölgədə iqtisadi vəziyyət o qədər də ürəkaçan deyil. Azərbaycanda heç bir çətinlik gözlənilmir. Yeni sənaye müəssisələri açılacaq, insanlar işlə təmin olunacaqlar. Bizim iqtisadi inkişafımız təmin ediləcək və xalqımızın rifah halı yaxşılaşacaq".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



2015-ci ildə rayonda ətraf mühitin mühafizəsi məqsədi ilə inzibati tədbirlər həyata keçirilərək 34597 manat cərimə tətbiq olunmuşdur. Rayonda 19075 ədədi yol kənarlarında olmaqla, 115500 ədəd ağac əkilmişdir. 1100 ha sahədə mədəni meşə əkininə xidmət olunmuş, 60 ha sahədə isə mədəni meşə əkini aparılaraq müxtəlif cinslərdən ibarət tinglər əkilmişdir.

Prezidentin 25 dekabr 2014-cü il tarixli Sərəncamının icrası olaraq rayonun 12 kəndində subartezian quyularının qazılması başa çatmışdır. "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC tərəfindən ötən ildə 30 ədəd subartezian quyusu təmir olunmuş, 6 kəndin 2101 ha əkin sahəsinin suvarılmasına xidmət edən iki pilləli "Alazan" nasos stansiyasının suvarma şəbəkəsinin təmir edilməsinə başlanılmışdır.

2015-ci il ərzində rayon ərazisində 1174,3 min m3 həcmində cay yataqları, 340.0 min m3 həcmində suvarma kanalları təmizlənmiş, 900 pm uzunluğunda suvarma kanalları beton üzlüklə örtülmüş, kanallar üzərində olan 20 ədəd suaşıran qapıların və 1 ədəd hidrotexniki qurğunun, Muxaxçayda və Talaçayda 5734 m3 həcmində daş-beton bəndlərin təmiri, Muxaxçayda və Katexçayda 300 pm uzunluğunda daş beton bəndlərinin tikintisi, Muxaxçayda 594 m3 həcmində qabion bəndlərin quraşdırılması işləri həyata keçirilmişdir.

Prezident Zaqatalada. 2015-ci ildə Zaqatalada xeyli quruculuq işləri görülüb.

Hesabat ilində rayonda bütün maliyyə mənbələri hesabına 28,8 milyon manat həcmində tikinti, abadlıq və quruculuq işləri görülmüşdür.

4 noyabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Zaqatala rayonuna növbəti səfəri zamanı Heydər Əliyev Mərkəzinin yeni binasının, Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala filialının, Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə şəhərin şimal-qərb yaşayış massivində inşa edilmiş yeni 100 yerlik körpələr evi-uşaq bağçasının və Prezidentin ehtiyat fondundan rayon icra hakimiyyətinə ayırmış vəsait hesabına əsaslı təmir işləri aparılmış, 28 km uzunluğunda Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yolunun 24,5 km hissəsinin açılış mərasimləri keçirilmişdir. Ötən il Sülh küçəsində çoxmənzilli yaşayış binalarının həyətində ictimai xeyir-şər evi istifadəyə verilmiş, rayon məhkəməsi üçün yeni inzibati binanın tikintisi davam etdirilmişdir. Rayonda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün yeni yaşayış məhəlləsinin - 3 ədəd 45 mənzilli yaşayış binasının, 150 şagird yerlik tam orta məktəbin, 50 yerlik uşaq bağçasının, klub binasının, tibb məntəqəsinin, ATS binasının və digər qurğuların tikintisinə başlanılmış, hazırda bu işlər davam etdirilir. Yuxarı Tala kənd 2 saylı tam orta məktəbin yerində yeni 450 şagird yerlik və Yengiyan kənd 264 şagird yerlik tam orta məktəb binaları istifadəyə verilmişdir. Kebeloba kənd ümumi orta məktəbdə təmir işləri aparılmış, 4 yeni sinif otağı inşa edilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş Muğanlı kənd körpələr evi-uşaq bağçasının bərpa-gücləndirməsi işləri başa çatdırılaraq istifadəyə verilmişdir. Əliabad qəsəbə 3 saylı və Mamqabinə kənd körpələr evi-uşaq bağçaları təmir edilərək yeni inventar və avadanlıqlarla təchiz edilmiş, hazırda Fındıqlı kənd uşaq bağçasının təmiri işləri davam etdirilir. Sahibkarlar tərəfindən rayonda yeni ticarət, xidmət, turizm və istirahət obyektlərinin, yüksək mərtəbəli yaşayış binalarının tikintisi davam etdirilmiş, rayonda ümumi sahəsi 13331 kvm olan 101 fərdi yaşayış evi tikilərək istifadəyə verilmişdir.



Hesabat ilində rayonda 2,5 milyon manatlıq, o cümlədən yerli imkanlar hesabına 411 min manat həcmində abadlıq və təmir işləri görülmüşdür. Bundan əlavə il ərzində bələdiyyələr tərəfindən aparılan təmir-tikinti və abadlıq işlərinin həcmi 110 min manat təşkil etmişdir.

**Şəhərin 28 May və Qarabağ küçələrində yaşayış və ictimai binaların tarixi görkəminin bərpası işləri aparılmış, H.Əliyev prospekti, Dədə Qorqud, H.Z.Tağıyev, Ə.Rəcəbli, Ü.Hacıbəyov, N.Nərimanov, Nizami, F.Əmirov küçələrində, magistral avtomobil yolunun qəsəbə və kənd ərazilərindən keçən hissələrində yerləşən yaşayış və ictimai binaların fasadları və sərhəd divarları təmir edilərək rənglənmişdir. Heydər Parkında yenidənqurma və abadlıq işləri aparılmış, köhnə daş plitələr sökülərək 3210 kvm yeni tamet plitə, 1660 metr uzunluğunda bordür döşənmişdir.**

(ardı gələn sayımızda)

***<u>Məzahir ƏHMƏDOĞLU</u>***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ